Salam əziz Meri,

Mən Fira, bu adımın qısaltmasıdır. Məktubunu gözlədiyim kimi həyəcanla da oxudum və eyni hissləri daşıdığımız üçün xoşbəxtəm. O qədər düzgün ifadələr işlətmisən ki, bu məni təsirləndirir. İnanılmaz hissdir mənim sözlərimi oxuyacaq olmağın.

Qardaşınla bağlı yaşadığın qorxuları, narahatlıq hissini mən də yaşayıram və o qədər haqlısan ki, çünki mənim həm atam hərbiçidir, həm də tezliklə qardaşım əsgər gedəcək və bunun məcbur olması yaxşı deyil. Düzdür, sərhədyanı ərazilərdə yaşamasam da, daim baş verənlər məni də narahat edir və bu mənim atdığım ilk çətin addımdır.

Sülh haqqında düşüncələrimiz çox bənzəyir və bu sevindirici haldır mənim üçün.

Sənin də qeyd etdiyin kimi, "biz əcdadlarımızın etdikləri üçün günahkar deyilik". Bəlkə də, biz bizə deyilən "gerçəklikdən" başqa bir şey bilmirik. Və nə olursa olsun , yenə də, nəticə insan həyatına başa gəlir. Bu vaxta kimi baş verənlər iki tərəfi də məmnun etməyib ,ancaq biz birgə gələcəyimiz üçün bir şey edə bilərik və bu, əsl vətənpərvərlik olar. Mən artıq müharibə istəmirəm, düzdür, nə qədər də bunun olmadığını və hər şeyin yaxşı olduğu deyilir . Amma hələ də əzizlərimiz , həmvətənlilərimiz qurban gedir. Ümid edirəm ki, şəxslər müharibəsiz , itkisiz və silahsız bir ortaq qərara gələrlər. Tarixən necə doğma xalqlar olduğumuzu bilirəm, müharibədən illər keçib və irəliləmə yoxdur . İnsanlarımızsa nə isə uğruna dəyişir. Məni təəssüfləndirən sadəcə budur.

Bilirsən, MERİ, mənim arzum səyyah olmaqdır və dünyanı gəzməkdir. Hələlik ölkəmi gəzsəm də, bir gün mən də Ermənistana gəlmək istəyərdim . Bəzən Google Earth–də Qarabağa baxıram, mən artıq valideynlərimin danışdığı orda olan xatirələri əvəzinə görmək istəyirəm . Ümid edirəm ki, bir gün qonşular, eyniylə sən və mən qovuşarıq. Və onda biz bu yolda birləşmək üçün atılan bu məktubla qürur duyarıq. Hələlik deyəcəm, çünki biz varıqsa, hələ də ümid var deməkdir…

Sənin sülhsevər dostun

Fira